

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 175 (23.337)

*19 sentyabr 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, bizim siyasi qarşılıqlı fəaliyyətimizin səviyyəsi çox yüksəkdir. Demək olar ki, dövlət başçılarının, digər rəsmi şəxslərin müntəzəm səfərləri, ticari-iqtisadi sahədə yaxşı irəliləmələr, birgə layihələr, birgə istehsal, təhlükəsizlik sahəsində, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıq mövcuddur. Belə ki, münasibətlərimiz dərin məzmunla zəngindir və nəticəyə yönəlib. Bir də demək istərdim, münasibətlərimizin fərqli xüsusiyyəti ondadır ki, biz qərar qəbul edirik, qərarların həlli yollarını müəyyənləşdiririk və nəticəsini görürük. Düşünürəm ki, bu müsbət dinamika gələcəkdə də saxlanılacaq, münasibətlər uğurla inkişaf etdiriləcək, ölkələrimizə və xalqlarımıza fayda gətirəcək.

Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas səmimi görüşə görə minnətdarlığını bildirib.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində keçirilən müşavirəni nazir, general-leytenant Şamı Abdullayev açaraq qeyd edib ki, ötən müddət ərzində nazirlik tərəfindən muxtar respublikada qazla iş rejiminə keçirilmiş 751 qazanxanaya texniki baxış olub. 419 mövsümi işçi qazanxana maşinisti ixtisası üzrə peşə kurslarına cəlb olunaraq sertifikat alıb. Hazırda peşə məktəblərində 99 nəfər ocaqçı-maşinist ixtisası üzrə kurs keçir.

Bildirilib ki, standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi üçün 102 ticarət obyektinin sahibkarı və istehlakçılar ilə maarifləndirici söhbətlər aparılıb, onlara bildirişlər təqdim edilib. Təkrar baxış zamanı 16 ticarət obyektində kustar üsulla hazırlanmış qaz başlığının və 23 ədəd təhlükəsizlik qurğusu olmayan mətbəx qaz pilətəsinin satışı dayandırılıb.

Diqqətə çatdırılıb ki, nazirliyin yaşayış və qeyri-yaşayış sahələrində, avtomobil parkları və texniki qarajlarında, səfərbərlik ehtiyatı anbarında təmir işləri aparılıb. "MACK" və "MAN" markalı xüsusi təyinatlı avtomobillər kompüter diaqnostikasından keçirilib, yanğınsöndürmə avtomobilləri üçün 17 min litr köpükəmələgətirən maye ehtiyatı yaradılıb, 10 avtomobil şini alınıb. Həmçinin Mülki Müdafiə Alayında 3 aylıq ərzaq, əşya və yanacaq-sürtkü materialları tədarük edilib. Cari ilin ötən dövründə yanğın təhlükəsizliyi orqanları tərəfindən 1188 obyektdə əsaslı, 1305 obyektdə nəzəri, 264 obyektdə məqsədli yoxlama keçirilib. Fərdi yaşayış evlərində reydlər zamanı 293 əlavə çəkilmiş elektrik xəttinin, qeyri-standart elektrik qızdırıcısının, 351 şlanqla çəkilmiş qaz xəttinin və qeyri-standart qaz sobasının istismarı dayandırılıb.

Vurğulanıb ki, təbii qazdan istifadə zamanı yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 335 yaşayış binasının qaz xətlərinə baxış keçirilib, 183 yaşayış binasının qaztənzimləyici qurğularında, 115 yaşayış binasının pilləkən qəfəslərində və qaz sayğaclarında qaz sızmalarının qarşısı alınıb. Qışa hazırlıqla bağlı Naxçıvan şəhərində ictimai yaşayış binalarının zirzəmilərində yoxlama-nəzarət funksiyaları həyata keçirilir. Aparılan tədbirlər nəticəsində muxtar respublikada yanğınların sayı ötən illə müqayisədə 60 faiz azalıb, dəm qazından ölüm halları qeydə alınmayıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən müşavirəni nazir Rövşən Məmmədov açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə digər sahələrlə yanaşı, Rabitə və Yeni Texnologiyalar Nazirliyinə də mühüm tapşırıqlar verilib, fasiləsiz poçt və rabitə xidmətlərinin göstərilməsi üçün mal-material ehtiyatlarının yaradılması tapşırılıb.

Qeyd olunub ki, hazırda payız-qış mövsümü ilə bağlı nəzərdə tutulan işlərin icrası davam etdirilir. Nazirliyin anbarında hazırda 184,5 kilometr fiziki, 79,6 kilometr fiber-optik kabellər var. Bundan əlavə, anbarda qəza halları üçün müxtəlif diametrli kabellərin hər birindən 2 kilometr olmaqla, ehtiyat saxlanılır. Mövsümdən asılı olmayaraq, istismar edilən bütün elektron qurğuların ehtiyat hissələrinin və bloklarının olmasına nəzarət edilir.

Vurğulanıb ki, avadanlıqların qorunması məqsədilə bütün mümkün imkanlardan istifadə olunur. Belə ki, birbaşa ümumi elektrik şəbəkəsindən qidalanan bütün avtomat telefon stansiyaları, radio və televiziya yayım avadanlıqları və digər qurğular xüsusi ayırıcı gərginlik releləri ilə təchiz olunub. Telefon kabellərinin abunəçilərə paylanma nöqtələrinə ildırım və elektrikdən qoruma sistemi olan abunəçi qutuları və paylama şkafları qoyulur.

Diqqətə çatdırılıb ki, hazırda muxtar respublika üzrə mövcud 198 avtomat telefon stansiyasından 26-sı açıq hava tipli, 166-sı əsaslı təmir edilmiş və ya yeni binalarda, 179 poçt məntəqəsindən 173-ü yeni, yaxud əsaslı təmir olunmuş istilik təminatı olan binalarda yerləşir. İstilik sistemi olmayan cəmi 14 iş yeri, o cümlədən 2 radio-televiziya verici stansiyası isə qışda standart elektrik qızdırıcıları ilə qızdırılır.

Bütün generator və akkumulyatorlara mərkəzləşmiş qaydada xidmət olunur, oktyabr ayının 25-dək enerjini az saxlayan istismar müddəti ötmüş akkumulyatorların yeniləri ilə əvəz edilməsi nəzərdə tutulur.

Nazir deyib ki, yaradılmış imkanlardan istifadə edilməklə hər il olduğu kimi, Rabitə və Yeni Texnologiyalar Nazirliyi 2019-2020-ci illərin payız-qış mövsümünü də uğurla başa vuracaq, muxtar respublikanın telekommunikasiya, poçt, radio-televiziya yayımı və internet sahəsinin dayanıqlı və keyfiyyətli işi təmin ediləcəkdir.

Müşavirə məruzə ətrafında çıxışlarla davam edib.

* * *

*Naxçıvan Şəhər İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirəni giriş sözü ilə İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açıb.*



Müzakirə olunan məsələ ilə bağlı Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsinin rəisi Nəsimi Novruzov çıxış edərək bildirib ki, idarə tərəfindən mövsümə hazırlıqla əlaqədar mərkəzləşdirilmiş, eləcə də fərdi qazanxanalara baxış keçirilib, cari və əsaslı təmirə ehtiyacı olan qazanxanalar müəyyənləşdirilib və bir sıra tədbirlər görülüb.

Diqqətə çatdırılıb ki, bu payız-qış mövsümündə də 5 mərkəzləşmiş, 38 fərdi qazanxana vasitəsi ilə 173 yaşayış binası, 7634 mənzil, 30 inzibati bina istiliklə təmin olunacaq. Qazanxanalarda çalışan ocaqçılar peşə kurslarına cəlb olunub, onlar üçün maarifləndirici tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılır.

Naxçıvan Şəhər Qaz İstismar İdarəsinin rəisi Mahmud Əbilsoy çıxışında qeyd edib ki, payız-qış mövsümünə hazırlıq məqsədilə şəbəkədə istismar olunan 113 qaz quyusuna baxış keçirilib, diametri 50 millimetrlik 5 istismara yararsız qaz kranı yenisi ilə əvəz olunub, 85 qaz quyusu çöküntüdən təmizlənib.

Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru Ələkbər Kərimov bildirib ki, ötən 8 ay ərzində əhalinin elektrik enerjisi verilişi təchizatının keyfiyyətini yaxşılaşdırmaq məqsədilə 96 elektrik hava xətti dirəyi quraşdırılıb, 2,9 kilometr uzunluğunda yeni xətt çəkilib. Qəzalı vəziyyətdə olan 100-dən artıq dirəyə beton altlıqlar vurulub, əsaslı təmir işləri aparılıb. Həmçinin 2019-cu ilin 8 ayı ərzində 446 smartkarttipli sayğac quraşdırılıb, Naxçıvan şəhərinə və inzibati ərazi dairələrinə quraşdırılan smartkarttipli elektrik sayğaclarının sayı 22 min 797-yə çatdırılıb.

Müşavirədə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov və Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin müdiri Təranə Cəfərova mövsümə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məlumat veriblər.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov qeyd edib ki, 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə verilən tapşırıqların icrası Naxçıvan şəhərinin idarə, müəssisə və təşkilatları tərəfindən yüksək səviyyədə təmin edilməli, mövsümə hazırlıq işləri vaxtında aparılmalı, yaradılan şəraitdən səmərəli istifadəyə və qurulanların qorunub saxlanılmasına diqqət artırılmalıdır.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirəsini xidmətin rəisi Əli Hüseynəliyev açıb. Bildirib ki, qarşıya qoyulmuş tapşırıqların icrasını təmin etmək, eləcə də payız-qış mövsümünü qüsursuz başa vurmaq üçün hazırlıq işlərinə başlanılıb.

Xidmətin payız-qış mövsümünə hazırlıq komissiyası tərəfindən Sədərək rayonunun Sədərək kəndinə, Şərur rayonunun Havuş, Şahbulaq, Yuxarı Yaycı, Babək rayonunun Gərməçataq, Ordubad rayonunun Unus, Tivi, Parağa, Şahbuz rayonunun Ağbulaq və digər ucqar dağ kəndlərinə işləyən nəqliyyat vasitələrinin sahiblərinə lazımi köməklik göstərilib. Sədərək rayonunun Heydərabad qəsəbəsindən Naxçıvan şəhərinə yeni marşrut xətti açılıb.

Vurğulanıb ki, Naxçıvan Şəhər Nəqliyyat İdarəsi tərəfindən şəhərdaxili mövsümlə əlaqədar yarana biləcək problemlərin həll edilməsi məqsədilə mexanik və çilingərlərdən ibarət təmir briqadası yaradılıb, idarənin təmir sexləri hazır vəziyyətə gətirilib. Həmçinin payız-qış aylarında avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınmasına, marşrut qrafikinə, avtobusların sürət həddinə və hərəkət cədvəlinə nəzarət olunması məqsədilə idarənin balansındakı 57 nəqliyyat vasitəsinə GPS monitorinq izləmə sistemi quraşdırılıb.

Bildirilib ki, beynəlxalq sərnişindaşıma xidmətinin fəaliyyəti də diqqətdə saxlanılıb, İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutunda işləyən avtobusların mövsüm ərzində fasiləsiz fəaliyyət göstərməsini təmin etmək üçün texniki müayinə tədbirləri aparılıb, zəruri təmir işləri vaxtlı-vaxtında həyata keçirilib. Muxtar respublika rəhbərinin tapşırığı ilə bu xətdə işləyən avtobusların gömrük nəzarətindən keçməsinin daha da sadələşdirilməsi, monitorların Naxçıvan Avtovağzalında quraşdırılması qış aylarında sərnişinlərin bu marşrutdan rahat istifadəsinə şərait yaradacaqdır. Bundan başqa, avtovağzalların fəaliyyətinin daha da genişləndirilməsi, balanslarında olan tikililərin, yaşıllıq ərazilərinin yüksək səviyyədə saxlanılması və sərnişinlərə xidmətin səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görülüb.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Asiya İnkişaf Bankının Baş Auditor Ofisinin nümayəndələri Naxçıvanda səfərdə olub

*Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində Asiya İnkişaf Bankının Baş Auditor Ofisi Azərbaycanın ölkə üzrə layihə portfelinin auditini həyata keçirmək məqsədilə iş proqramına uyğun olaraq görüş keçirib. Tədbirdə missiyanın rəhbəri xanım Nadejda Moçinova, baş audit xanım Vei Sen Çanq, baş audit xanım Amuerfina Sabtosç və digərləri iştirak ediblər.*



Görüşdə icra olunmuş layihənin sahə səfəri ilə bağlı məsələlər müzakirə edilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən həyata keçirilmiş "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərində müasir içməli su və kanalizasiya sistemlərinin qurulması barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, muxtar respublikada həyata keçirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri davamlı inkişaf üçün şərait yaradıb. Əldə olunan uğurlar, ilk növbədə, insanların sosial rifah halının yaxşılaşdırılmasına, onların yaşayış səviyyəsinin yüksəldilməsinə səbəb olub, insan həyatı və sağlamlığı üçün ən əhəmiyyətli məsələlərdən biri olan içməli su və onun istifadəsi ilə bağlı problemlər həll edilib, muxtar respublikanın su ilə təminatına və əhalinin suya olan tələbatının ödənilməsinə nail olunub. Bu isə sakinlərin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.

Naxçıvançay yatağında məhsuldarlığı orta hesabla saniyədə 472 litr, uzunluğu 2,9 kilometr, dərinliyi isə 6 metr olan kaptaj tikilib, kaptajın üzərində 52 baxış quyusu və bir ədəd suqəbuledici kamera quraşdırılıb. Kaptajdan təmizləyici qurğuya qədər 6,4 kilometr özüaxımlı şüşəlifli magistral boru xətti çəkilib. Kaptajın ətrafı 3,3 kilometr uzunluğunda dəmir məhəccərlə hasarlanıb, onun sel sularından qorunması üçün 1,5 kilometr qoruyucu bənd tikilib.

Komitə sədri bildirib ki, 2014-cü il aprel ayının 7-də Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib. Nanofiltrli membrantipli sutəmizləyici qurğu əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsində böyük rol oynayır. Kompleksdə suyun təmizlənməsi üçün ən müasir qurğu və avadanlıqlardan istifadə olunur.

Əsgər Əsgərov diqqətə çatdırıb ki, təmizlənmiş su ümumi tutumu 25 min kubmetr olan 3 su anbarına yığılır və şəbəkəyə ötürülür. Su anbarlarının inşası zamanı hündürlük fərqinin nəzərə alınması şəhərin su təchizatının özüaxımlı rejimdə təmin olunmasına imkan verir. Sutəmizləyici qurğudan şəhər şəbəkəsinə hər birinin uzunluğu 3,75 kilometr olmaqla, cəmi 7,5 kilometr şüşəlifli borularla özüaxımlı qoşa magistral xətt çəkilib.

Layihə çərçivəsində Naxçıvan şəhəri və onun inzibati ərazisinə daxil olan 5 kənd (Qaraçuq, Bulqan, Qaraxanbəyli, Hacıniyyət və Tumbul), Babək rayonunun Şıxmahmud, Xəlilli və Şəkərabad kəndləri daxil olmaqla, 350,1 kilometr daxili su şəbəkəsi, 332,5 kilometr kanalizasiya şəbəkəsi çəkilib və 25 min 874 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb.

Layihə ərazisində 135 min sakin fasiləsiz olaraq Beynəlxalq Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su və yeni kanalizasiya şəbəkəsi ilə təmin olunub. Yerin relyefindən asılı olaraq mənzillərə 2 barla 5 bar arasında təzyiqlə su verilir. Təmizləyici qurğunun tikilməsində məqsəd çirkab sularının təmizlənmədən çaylara axıdılmasının, ətraf mühitin çirklənməsinin qarşısını almaqdır. Layihənin icrasını təmin etmək üçün yeni texnologiya və avadanlıqlardan istifadə olunub.

Vurğulanıb ki, muxtar respublikanın iqlim şəraitinin və relyefinin nəzərə alınması, keyfiyyətə xüsusi diqqət yetirilməsi qurulan yeni içməli su və kanalizasiya sistemlərinin uzun müddət istismarına imkan verib.

Asiya İnkişaf Bankının Baş Auditor Ofisinin nümayəndələri qonaqpərvərliklə qarşılandıqları üçün minnətdarlıqlarını bildirib, layihənin həyata keçirilməsi prosesi ilə bağlı suallar cavablandırılıb.

Sonra Naxçıvan şəhərindəki su təchizatı və kanalizasiya sistemləri ilə bağlı slayd nümayiş olunub.

**Muxtar MƏMMƏDOV**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər avqust ayında da davam etdirilmişdir. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 14 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülmüşdür.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 1117 müraciət daxil olmuş, müraciətlərdən 115-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, eləcə də Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir. Avqust ayında olduğu yer üzrə qeydiyyatla bağlı 1002 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 508-i elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Muxtar respublikamızın böyük sənaye müəssisələri arasında xüsusi yeri ilə seçilən müəssisələrdən biri də Naxçıvan Avtomobil Zavodudur. 2010-cu ildən fəaliyyət göstərən zavodda avtomobil sənayesində tətbiq olunan müasir dizayn, təhlükəsizlik və ekoloji normalara uyğun avtomobillər istehsal olunur. İstehsal sahəsi, satış salonu, anbar və inzibati binadan ibarət olan zavodun 2472 kvadratmetrlik ərazisində Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb.*

## Naxçıvan Avtomobil Zavodunda yeni marka və modellərdə avtomobillər istehsal ediləcək





Müxtəlif təyinatlı 17 modeldə "NAZ Lifan" markalı avtomobillərin istehsal olunduğu zavod Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da müəssisədə istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Zavodda həm mexaniki, həm də sürət qutusu ilə işləyən avtomobillər istehsal edilir. Bundan əlavə, Naxçıvan Avtomobil Zavodunun Naxçıvan və Bakı şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları, həmçinin Şərur və Culfa rayonlarında avtomobillərin servis mərkəzləri fəaliyyət göstərir. Bu da muxtar respublikada müəssisənin istehsal etdiyi avtomobillərə texniki xidmət göstərilməsinə əlverişli şərait yaradır.

2019-cu ilin aprel ayından isə Naxçıvan Avtomobil Zavodu "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının tərkibinə daxil edilib. Bu dövrdən başlayaraq müəssisədə kompleks tədbirlər həyata keçirilib. Belə ki, zavoddakı istehsal prosesinə nəzarət məqsədilə yeni kameralar quraşdırılıb. Culfa servis mərkəzi isə yenidən qurulub. Eyni zamanda müəssisədə yeni marketinq şöbəsi də yaradılıb, maliyyə-mühasibat işinin təkmilləşdirilməsi üçün yeni mikroproqramın qurulması təmin edilib. Naxçıvan Avtomobil Zavodunun direktoru Səxavət Hümbətovun verdiyi məlumata görə, ötən dövrdə müəssisə tərəfindən iki dəfə kampaniya təşkil olunub. Kampaniya çərçivəsində avtomobillərin ehtiyat hissələrinin satışında 30-50 faiz endirimlər tətbiq edilib, göstərilən xidmətlər isə iki ay boyunca (iyun-iyul) pulsuz olub. Bundan əlavə, zavodun əvvəldən istehsal etdiyi 100-dən çox avtomobil güzəştli şərtlərlə istehlakçılara satılıb. Hazırda müəssisə tərəfindən avtomobil istehlakçıları arasında yeni sorğu kampaniyasına başlanılıb. Sorğu çərçivəsində avtomobil sahibləri istifadə etdikləri nəqliyyat vasitələrində yaranmış hər hansı bir problemlə bağlı sualları cavablandırır, ehtiyac duyduqları ehtiyat hissələrini və göstərilən xidməti 30 faiz güzəştlərlə əldə edirlər.

Qeyd edək ki, Naxçıvan Avtomobil Zavodu "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının tərkibinə daxil olduqdan sonra avtomobillərin "Cahan Motors" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomobil salonlarında da satışı təşkil edilib. Bununla yanaşı, zavodda istehsal edilən avtomobillərin ixracı və onların ehtiyat hissələrinin maya dəyərinin aşağı salınması üçün qonşu ölkələrdə bazar araşdırmaları aparılıb. Direktorun sözlərinə görə, müəssisədə yeni marka və modellərdə avtomobillərin istehsalı da nəzərdə tutulub. Bunun üçün "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının rəhbəri Vüqar Abbasov və rəhbərlik etdiyi nümayəndə heyəti bu il avqustun 25-dən sentyabrın 1-dək Çin Xalq Respublikasında işgüzar səfərdə olub. Səfər çərçivəsində nümayəndə heyəti tərəfindən Çinin "Lifan İndustrial Group", "FAW İndustrial Group" və digər böyük avtomobil istehsalçıları ilə danışıqlar aparılıb, əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi yolları müzakirə edilib. Perspektivlər nəzərə alınaraq 2020-ci ilin birinci yarısında zavodda müxtəlif təyinatlı marka və modellərdə avtomobillərin, o cümlədən motosikletlərin istehsalına başlanılacaq. Bunun üçün ilkin mərhələdə istehsal xəttinə nəzarət xaricdən dəvət olunan mütəxəssislər tərəfindən həyata keçiriləcək. Sonrakı mərhələdə isə yerli mütəxəssislərin iştirakı təmin olunacaq. Burada da əsas məqsəd daxili bazarın tələbatını ödəməklə yanaşı, həm də istehsal olunan nəqliyyat vasitələrinin digər ölkələrə ixracını təşkil etməkdir.

Onu da bildirək ki, zavodda istehsal olunan nəqliyyat vasitələrinin güzəştli şərtlərlə satışı və texniki servis xidməti də nəzərdə tutulub.

**Səbuhi HƏSƏNOV**

## Payız-qış mövsümünə hazırlıqla bağlı tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində keçirilən iclası xidmətin rəisi Vəli Novruzov açaraq bildirib ki, muxtar respublika üzrə ərzaq ehtiyatının artırılması və təhlükəsizliyinin təmin edilməsində xüsusi rolu olan baytarlıq xidməti hər il olduğu kimi, bu il də payız-qış mövsümündə əhalinin etibarlı heyvandarlıq məhsulları ilə tam təmin edilməsi məqsədilə tədbirləri davam etdirib.

Qeyd olunub ki, kəskin kontinental iqlimə malik olan muxtar respublikada yayın çox isti, qışın isə çox soyuq keçməsi ev heyvanlarının sağlamlığına da mənfi təsir edir və bu aylarda heyvanların sağlamlığının qorunmasında baytar həkimlər ilə yanaşı, sahibkarların da üzərinə mühüm vəzifələr düşür. Bunları nəzərə alaraq Dövlət Baytarlıq Xidməti və onun strukturları tərəfindən hər il payız-qış mövsümü ilə əlaqədar olaraq mal-qaranın, ev quşlarının, arı ailələrinin sağlamlığının qorunması, zoobaytar qaydalar əsasında yemləndirilməsi, saxlanılma şəraiti və digər tədbirlər barəsində sahibkarlara zəruri məlumatlar və məsləhətlər verilir, broşürlər hazırlanaraq onlara paylanılır. Muxtar respublikanın baytarlıq laboratoriyalarında da heyvanların sağlamlıq vəziyyətinin müəyyən edilməsi məqsədilə profilaktik olaraq bruselyoz xəstəliyinə görə qan nümunələrinin götürülməsi və yoxlanılması, helmint xəstəliklərinə görə müayinələrin aparılması davam etdirilir.

Sonda məruzə ətrafında çıxışlar olub.

* * *



*Naxçıvan Muxtar Respublikası "Naxçıvanqaz" İstehsalat Birliyində keçirilən iclasda birliyin direktoru Ramin İsmayılov məruzə ilə çıxış edib.*

Qeyd olunub ki, payız-qış mövsümündə davamlı və dayanıqlı təbii qazla təminat üçün qaz təchizatı sistemində texniki baxış tədbirləri davam etdirilir, təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun gələn texnoloji rejimdə həyata keçirilməsi üçün tədbirlər görülür. Yerlərdə istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsinə, sayğacdankənar istifadə hallarının qarşısının alınmasına nəzarət artırılır.

Diqqətə çatdırılıb ki, "Naxçıvanqaz" İstehsalat Birliyi qazpaylayıcı stansiya və məntəqələrdə qaz nəqli proseslərinin kənardan idarə edilməsi və operativ nəzarət üzrə informasiya-ölçü qeydiyyat sisteminin fəaliyyətini günün tələbləri səviyyəsində qurub. Cari ilin 8 ayında əhali qrupundan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün 7217 mühafizə qutusu quraşdırılıb. 1 sentyabr 2019-cu il tarixə Naxçıvan şəhərində 19 min 469 qaz sayğacı quraşdırılıb və bu sahədə işlər davam etdirilir. Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursları təşkil olunub. Kursu bitirən müdavimlərə sertifikatlar verilib.

Bildirilib ki, avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə müəyyən olunan vaxtlarda aparılıb. Təbii qazın mexaniki qarışıqlardan təmizlənməsi üçün tətbiq olunan bütün texnoloji avadanlıqlara zəruri texniki xidmət göstərilib, sıradan çıxan hissələr yenisi ilə əvəz olunub.

Vurğulanıb ki, qəza hallarının aradan qaldırılmasında operativliyin təmin edilməsinə, yeni qaz xətləri çəkilərkən və bərpa olunarkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqət artırılmalıdır. Yaradılmış mal və material ehtiyatlarından səmərəli istifadə olunmalı, işlənən materialların yerinə yenisi alınıb gətirilməli, ehtiyat yaradılmalı və işçilər qış mövsümünə uyğun xüsusi geyim və avadanlıqlarla təmin edilməlidir.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2019-cu il aprel ayının 18-də Azərbaycan romantizminin əvəzsiz simalarından olan Hüseyn Cavidin sevimli övladı, istedadlı musiqiçi-rəssam, sənətşünas Ərtoğrol Cavidin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir:* ***"Çoxcəhətli yaradıcılıq yolu keçən Ərtoğrol Cavid, eyni zamanda rəssamlığın müxtəlif janrlarına da müraciət edərək özündən sonra yaddaqalan sənət nümunələri qoyub getmişdir. Ərtoğrol Cavid bədii yaradıcılıqla da məşğul olmuş, pyes və şeirləri dövrümüzədək gəlib çatmışdır. Yaradıcılığı "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" adlı 13 cildlik külliyyatda toplanmışdır".*** *Həmin sərəncamla Ərtoğrol Cavidin 100 illik yubileyi Naxçıvan Muxtar Respublikasında silsilə tədbirlərlə geniş qeyd edilməkdədir.*

*Ərtoğrol Cavid – 100*

# Ərtoğrol Cavid, yaxud bir ailənin dramı



Ərtoğrol Cavid 22 oktyabr 1919-cu ildə, Azərbaycan Xalq Cümhuriyyətinin çiçəkləndiyi bir dövrdə Bakıda böyük romantik şair və tanınmış dramaturq Hüseyn Cavid Rasizadənin ailəsində dünyaya göz açıb. Böyük qələm sahibinin evində XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simaları olan Əhməd Cavad, Mikayıl Müşfiq, Seyid Hüseyn, Abdulla Şaiq, Ömər Faiq Nemanzadənin iştirakı ilə ədəbiyyat, şeir söhbətlərinin, dünya ədəbiyyatının şedevrlərinin elmi-ədəbi müzakirələrinin aparılması ailənin ilk övladında incəsənətə, bədii ədəbiyyata, xalq ədəbiyyatına tükənməz sevgisinin yaranmasına səbəb olub. Böyük ədib övladlarını hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşdırmağa xüsusi diqqət yetirib.

Pedaqoji İnstitutun Dil və ədəbiyyat fakültəsində təhsil aldığı illərdə Ərtoğrolun müəllimi olmuş akademik Məmməd Cəfər Cəfərov onun tənəffüslərdə də həmişə sinif otağında olduğunu, qarşısında nadir kitablar, dəftər, əlində qələm nə isə oxuduğunu, düşündüyünü, müəllimlər arasında çox böyük hörmət qazandığını yazıb. 1940-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirdikdən sonra o, Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsinə daxil olub. Müəllimi – dahi bəstəkar, konservatoriyanın rektoru Üzeyir Hacıbəyov onun bu sahədə fitri istedadı olduğunu dəfələrlə qeyd edib. Ailəsinin maddi ehtiyaclarını ödəmək üçün gənc Ərtoğrol tələbəlik illərindən Azərbaycan opera müğənnisi, peşəkar vokal sənətinin banisi Bülbül tərəfindən konservatoriyada xalq musiqisinin tədqiqatı ilə məşğul olan Musiqinin Elmi-Tədqiqat Kabinəsinin üzvü kimi – elmi işçi vəzifəsində böyük həvəslə çalışıb. Ərtoğrol Cavid bütün toplama materiallarına çox ciddi və məsuliyyətlə yanaşıb, onların məziyyətləri ilə yanaşı, nöqsanlarını da nəzərə çatdıraraq arzu və təkliflərini bildirib. Bu tənqidi qeydlər onun Azərbaycan etnoqrafiyasını, folklorunu və musiqi sənətini dərindən bildiyini və şifahi xalq ədəbiyyatının estetik-tərbiyəvi əhəmiyyətinə yüksək dəyər verdiyini sübut edir. Hüseyn Cavidin Bakı şəhərindəki ev-muzeyində saxlanan həmin materiallar əsasında 2011-ci ildən başlayaraq 13 cildlik "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" toplusu AMEA Hüseyn Cavidin ev-muzeyinin direktoru, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlının tərtibçiliyi ilə nəşr olunub.

Ərtoğrol Cavid 1941-1942-ci illərdə konservatoriyanın nəzdindəki musiqi məktəbində də dərs deyib. Gənc Ərtoğrol qələmini nəsr, dramaturgiya və poeziya sahəsində də sınayıb, "Eqoistin taleyi" adlı bir pyes yazıb. İlk böyük əsəri fortepiano üçün yazılmış və Üzeyir Hacıbəyova ithaf olunmuş "Doqquz variasiya"dır. Nizaminin "Sevgili yar gəlmiş idi" qəzəlinə, Nigar Rəfibəylinin "Eşq olsun", türkmən şairi Kəminənin "Leylanın vəsfi", Tahir Rasizadənin "Səninlə olaydım" və digər şeirlərə romans və mahnılar bəstələyib. İkinci Dünya müharibəsi zamanı "Sərhəddən məktub" simfonik balladası və marşlar yazıb, lakin "Şeyx Sənan", "Məhsəti" operalarını tamamlamaq, təəssüf ki, ona nəsib olmayıb. Ərtoğrol Cavid bir sıra məşhur Azərbaycan xalq mahnılarını – "Dağlarda çiçək", "Uca dağlar", "Sona bülbüllər", "Ceyran bala" və digərlərini nota salıb, Avropa və rus bəstəkarlarının romans və mahnılarının mətnlərini Azərbaycan dilinə tərcümə edib.

Ərtoğrol Cavid 1942-ci ildə tələbə olmasına baxmayaraq, ordu sıralarına çağırılıb, "xalq düşməni"nin oğlu olduğu üçün cəbhəyə deyil, Gürcüstanda yerləşən fəhlə batalyonuna işləməyə göndərilib. Güclü soyuqdəymə nəticəsində Gürcüstanda bir müddət xəstəxanada yatıb, professor Əziz Şərifin köməkliyi ilə, nəhayət, Naxçıvana gətirilsə də, yaxşı qidalanmaması və müalicə edilə bilməməsi səbəblərindən 24 yaşının tamam olmasına bir həftə qalmış – 14 oktyabr 1943-cü ildə Naxçıvanda dərdli və nisgilli bir halda dünyadan köçüb. Məzarı ölümündən 53 il sonra – 1996-cı ildə ümummilli lider Heydər Əliyevin göstərişi ilə Hüseyn Cavidin Naxçıvandakı məqbərəsinə köçürülüb.

Böyük Cavidin həqiqi bəraəti xalqımızın ümummilli lideri Heydər Əliyevin 1981-ci ildə onun 100 illik yubileyinin keçirilməsi haqqında verdiyi tarixi qərardan sonra reallaşdığı kimi, Ərtoğrol Cavidin də həqiqi bəraəti və onun haqqında layiq olduğu sözlərin deyilməsi və yazılması məhz keçən yüzilliyin 80-ci illərindən sonra gerçəkləşib. Belə ki, Ərtoğrol Cavidin musiqi yaradıcılığı barədə ilk dəfə Azərbaycanın Xalq yazıçısı Anar 1980-ci ilin noyabr ayında "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmuş "Böyük sənətkarın sənətkar oğlu" məqaləsində bəhs edib.

Əslində, Anarın həyat yoldaşı Zemfira xanım Səfərova tədqiqat işi apararkən 40-cı illərə aid materiallarda "Ərtoğrol" imzasına ilk dəfə rast gəlib, bu imza ilə bağlı Anardan soruşub və Ərtoğrol Cavidin arxivini Turan xanımdan əldə edə bilib. 1981-ci ildə Xalq yazıçısı Anarın təbirincə desək, "gənc yaşlarından çətin sınaqlar qarşısında qalıb və bu sınaqlardan şərəflə, ləyaqətlə çıxmış" Ərtoğrol Cavidin xatirəsinə həsr olunmuş ilk televiziya verilişi tamaşaçılara təqdim edilib. Anarın təşəbbüsü və aparıcılığı ilə araya-ərsəyə gələn bu verilişdə vaxtilə Ərtoğrol Cavidə dərs demiş akademik Məmməd Cəfər Cəfərov, Xalq artisti, bəstəkar Cahangir Cahangirov, Ərtoğrolun bacısı Turan Cavid və sinif yoldaşı Ətaulla Qasımov onun haqqında unudulmaz xatirələrini, bənzərsiz istedadı barədə düşüncələrini dilə gətiriblər. Həmin verilişdə son dərəcə çətin və məşəqqətli həyat yolu keçmiş Ərtoğrol Cavid haqqında söylənilən dəyərli fikirlərin bəziləri filologiya elmləri doktoru Gülbəniz Babaxanlının 2009-cu ildə "Ədəbiyyat qəzeti"ndə çap olunmuş "Ərtoğrol Cavid" adlı məqaləsində ictimaiyyətə çatdırılıb.

Ərtoğrol Cavidin dövrü, həyatı, mühiti, bədii yaradıcılığı, ədəbi və elmi fəaliyyət istiqamətləri Solmaz Haşımova Ərturanın 2002-ci ildə nəşr olunmuş "Ərtoğrol Cavid – şəxsiyyəti və irsi" monoqrafiyasında ətraflı tədqiqata cəlb edilib. Giriş, iki fəsil və nəticədən ibarət olan bu monoqrafiya Ərtoğrol Cavidin ömür yolunun inkişaf mərhələlərinin işıqlandırılması, bütün materialların araşdırılması və ilk sistemli elmi əsər olması baxımından xüsusi əhəmiyyətə malikdir.

Ərtoğrolşünaslıq tarixində əvəzsiz xidmətləri olan ziyalılarımızdan biri, həm Hüseyn Cavid, həm də Əli bəy Hüseynzadə haqqında arxiv materiallarına əsaslanan sanballı tədqiqat əsərlərinin müəllifi, "Hüseyn Cavid" mükafatı laureatı, tənqidçi, publisist, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Azər Turandır. O, 2005-ci ildə Ərtoğrol Cavidin şeirlərini, nəsr və dram əsərlərini, bəstələrini, məktublarını bir yerə toplayaraq "Ərtoğrol Cavid yazıları, rəsmləri, bəstələri, məktubları" adı ilə nəşr etdirib. Azər Turan 2003-cü ildən başlayaraq Ərtoğrol Cavid irsini oxuculara çatdırmaq, tədqiqatı üçün zəmin hazırlamaq kimi şərəfli bir vəzifəni üzərinə götürüb. Bəhs olunan kitabın "Ərtoğrol bəy" adlı ön sözündən sonra "Şair", "Yazıçı", "Tələbə", "Dramaturq", "Bəstəkar", "Rəssam" bölmələrində müvafiq əsərləri yer alıb, "Şəhid məktubları" bölməsində isə dəyərli tədqiqatçının, həqiqətən də, ən müqəddəs bir zirvə olan "Şəhid" adına layiq gördüyü, şərəfli və faciəli bir həyat sürmüş Ərtoğrol Cavidin ailəsinə, Üzeyir Hacıbəyov və başqalarına olan məktubları öz əksini tapıb.

Azərbaycan ədəbiyyatında Hüseyn Cavidin obrazı yaradılan bir çox bədii əsərlərdə onun qeyri-adi istedad və təfəkkürə malik oğlu Ərtoğrolun da obrazı təsvir edilib. Şairə-dramaturq Nafilə Abuzərlinin Hüseyn Cavidə həsr etdiyi "Eşq mələyi" dramında, şair-dramaturq Nizami Muradoğlunun həm "Hüseyn Cavid" adlı psixoloji-mənzum faciəsində, həm də "Bu dünyanın məzarları ağlamaz" adlı sənədli poemasında ötən əsrin 30-cu illərinin amansız repressiyası fonunda Ərtoğrolun həyatı, sənəti və mübarizəsi öz bədii ifadəsini tapıb.

Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlı həyatdan nakam getmiş istedadlı gəncin taleyi və çoxşaxəli yaradıcılığından, şair, bəstəkar, rəssam kimi fəaliyyətindən bəhs edən "Ərtoğrol Cavid, yaxud bir ailənin dramı" mənzum faciəsini 2004-2008-ci illərdə qələmə alıb. Əsərdən əvvəl verilən "Müəllifdən" adlı qeydlərdən əsərin yazılmasında əsas məqsədin Cavidlər ailəsinə qarşı xalqımızın qəlbində olan məhəbbəti daha da artırmaq olduğu aydın görünür. Əsərdə amansız repressiya dövrünün qurbanı olan böyük mütəfəkkir, şair, dramaturq Hüseyn Cavidin və onun ailə üzvlərinin faciəli taleyindən, 24 il qısa və mənalı ömür sürən Ərtoğrol Cavidin sənətkarlıq yaradıcılığından bəhs olunur. Dramda böyük vətən aşiqi bir şairin övladı kimi Ərtoğrolun milli varlığımıza, xalq ədəbiyyatımıza, xalq musiqisinə və incəsənətə qırılmaz tellərlə bağlı obrazı yaradılıb. Rəsm, musiqi və ədəbiyyat sahələrində qeyri-adi istedada malik olan bu gənc həm də ən yüksək insani hissləri, zəngin mənəviyyatı ilə ətrafındakıların məhəbbətini qazanıb.

Böyük şairin Sibirə sürgünə göndərilərkən ömür-gün yoldaşı Müşkinaz xanıma dediyi "Nə qələmim



susacaq, nə gülüm solacaq" son sözləri əsərə epiqraf olaraq verilib. Əsərdə romantik şair Hüseyn Cavidin və onun ailə üzvlərinin, istedadlı bəstəkar Üzeyir bəy Hacıbəyovun, unudulmaz müğənni Bülbülün yaddaqalan obrazları yaradılıb. Mənfi planda işlənmiş obrazlar isə Hüseyn Cavidin "İblis" mənzum faciəsinin xəyali obrazlarından olan İblis və 3 nəfər DTK-nın müstəntiqləri – Stepan Yemelyanov, Ruben Markaryan və Xoren Qriqoryandır. Nigar isə Ərtoğrolun tələbə yoldaşı, qəlbində gizli saxladığı sevgisidir. Əsərdə pünhan sevgisini özü ilə əbədiyyət dünyasına aparan Ərtoğrol Cavid həm də böyük və saf məhəbbətlə sevən, fədakar bir aşiq kimi diqqəti cəlb edir.

Birinci pərdənin birinci şəklindən gənc Ərtoğrolun əlyazması şəklində olan şeirlərindən və onun bu sahədəki istedadına özünün və atası Hüseyn Cavidin inamından danışılır. İlk qələm təcrübələrindən olan "Ay" şeirini Turana oxuyan Ərtoğrolu təsadüfən Hüseyn Cavid də dinləyir, həm valideyn və həm də bir şair kimi öz xeyir-duasını verir. Lakin əsərdə təqdim olunan bu şeir "Ərtoğrol Cavid yazıları, rəsmləri, bəstələri, məktubları" kitabındakı "Ay" şeirindən bir qədər fərqlənir. Birinci şəkildə Üzeyir bəylə Cavidin söhbətlərindən Ərtoğrolun tələbəliklə yanaşı, bəstəkar kimi fəaliyyəti və bu sahədə də misilsiz istedadının olduğu təsvir edilir. Moskvadan yenicə gəlmiş Üzeyir bəy Stalinin rəhbərliyi ilə orada kütləvi həbslərin başlandığını xəbər verir və ehtiyatlı olmağa çağırır. İkinci şəkildə Ərtoğrolun institut həyatı canlandırılır. Aşiq olduğu tələbə yoldaşı Nigar adlı qızın rəsmini çəkməsi, gənclərin rəssamlıq barədə fikirlərini bölüşmələri Ərtoğrol Cavidin incəsənətin bu sahəsində də istedadının olduğunu və yaratdığı əsərləri, sadəcə, baxıb təkrarlamaqla deyil, ruhunda yaşadıb duyaraq hər bir cizgiyə məna verdiyini öyrənirik. İblisin dilindən verilmiş parçalar Hüseyn Cavidin "İblis" faciəsindən eynilə götürülərək əsərə daxil edilib, bəzi faktlara əsaslanmaq üçün ictimai xadim, akademik, yazıçı və publisist Rafael Hüseynovun "Vaxtdan uca" əsərinə istinad olunub. Cavidə qarşı irəli sürülən ittihamlar, haqsız tənqidlər və Cavidin öz məramından dönməyərək kimsəyə boyun əyməyə razı olmaması, onu DTK-da pantürkistlikdə ittiham edən üçlüyə verdiyi tutarlı cavablar, əyilməzliyi, dönməzliyi onu tam bir xarakter olaraq təsəvvür etməyə imkan verir. Əsərin birinci pərdəsi Cavidin mühakiməsi və haqqında həbs hökmünün çıxarılması ilə sona çatır.

İkinci pərdədə Ərtoğrol Cavidin bəstəkarlıq fəaliyyəti, nota köçürdüyü xalq mahnıları, yaradıcılığının çiçəkləndiyi bir zamanda əsgərliyə çağırılması, bu xəbəri sevinclə qarşılaması, bununla həyatının ən çətin anlarının başlaması, lakin heç nəyə baxmayaraq ümidini itirməməsi onu əsl Cavid adına layiq bir övlad kimi oxucuların nəzərində canlandırır. Əsərin ən təsirli hissələri Ərtoğrolun ölümü, dəfn mərasimində sovet repressiyasının qorxusundan çox az insanın iştirak etməsi, anası və bacısının iştirak edə bilməməsi, bu xəbərdən sarsılan Şahsənəm nənənin və Müşkinaz xanımın dilindən deyilən ağılardır. Əsər Hüseyn Cavidin "Şeyx Sənan" mənzum faciəsinin sonluğuna bənzər şəkildə tamamlanır.

Ərtoğrolun vəfatından bir müddət sonra Müşkinaz xanım, sonralar isə Turan Cavid haqq dünyasına qovuşublar. Dramda təsvir olunur ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ciddi səylərinin nəticəsi olaraq böyük Cavidin cənazəsi Uzaq Sibirdən doğma yurdu Naxçıvana gətirilərək burada şairin möhtəşəm məqbərəsi ucaldılır. Bir-birindən ayrı düşərək qəriblikdə həyatlarını tapşıran ailə üzvlərinin ruhlarının burada qovuşması son dərəcə xoşbəxt şəkildə təsvir olunub. Bu misilsiz xidmətinə görə böyük şairin və bütöv bir xalqın ulu öndərə minnətdarlığı da əsərdə öz bədii əksini tapıb.

***Beləliklə, Ərtoğrol Cavid Azərbaycan mədəniyyəti, ədəbiyyatı tarixində misilsiz istedadı ilə hərtərəfli və dərin biliyə malik böyük şəxsiyyət kimi xalq ruhuna, ədəbiyyat və musiqisinə bağlı, müasir dünya ədəbiyyatını, musiqisini ən yüksək səviyyədə mənimsəyən, həm milli, həm də bəşəri bir yaradıcılığa malik, vətənpərvər, son dərəcə qürurlu bir gənc olaraq əbədi yaşamaq haqqını qazanıb. Ərtoğrol Cavidin simasında Azərbaycan xalqı təkcə böyük Hüseyn Cavidin gənc yaşlı övladını deyil, şairini, nasirini, dramaturqunu, folklorçusunu, musiqişünasını, bəstəkarını, rəssamını, tərcüməçisini itirib. Lakin xain düşmən xalqımızın istedadlarını fiziki cəhətdən məhv etməklə öz məqsədinə nail olduğunu sanmasın. İstər həbs, sürgün, işgəncələr, istərsə də məşəqqətli həyat qorxusu nə dahi şair Hüseyn Cavidi, nə də onun ideyalarının davamçısı Ərtoğrol Cavidi sındıra bilib. Onların adları bir xalqın hafizəsinə əbədi həkk olunub. Azərbaycan belə mətin, mübariz, vətən, xalq uğrunda canından keçən övladları ilə fəxr edir!***

**Aygün ORUCOVA**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# Naxçıvanda Milli Musiqi Günü qeyd olunub

*18 sentyabr – Milli Musiqi Günü münasibətilə Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tədbir keçirilib.*

Respublikası Bəstəkarlar Təşkilatının, Aşıqlar Birliyinin fəaliyyəti üçün yüksək iş şəraiti yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Musiqi Kollecinin 40, Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileylərinin yüksək səviyyədə qeyd olunması muxtar diyarımızda musiqi sənətinin inkişafına, eləcə də milli musiqimizin təbliğinə böyük töhfə kimi qiymətləndirilib.




Tədbirdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək deyib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu gün – 18 sentyabr tarixinin ölkədə “Milli Musiqi Günü” kimi qeyd olunması haqqında Fərman imzalayıb və həmin tarixdən etibarən hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Nazir bu münasibətlə bütün tədbir iştirakçılarını və musiqi ictimaiyyətini təbrik edib.

Bildirilib ki, Azərbaycanın zəngin musiqi sənəti çoxəsrlik inkişaf tarixinə malikdir. Xalqımız tarixən sahib olduğu zəngin dövlətçilik ənənələrini məhz milli mədəniyyət nümunələri sayəsində formalaşdırıb. Qədim diyarımızın Azərbaycanın yüksək inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri kimi tanınmasından, musiqi mədəniyyətimizə verdiyi töhfələrdən bəhs edən nazir vurğulayıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Naxçıvan şəhərində, rayon mərkəzlərində yeni musiqi məktəbləri inşa olunaraq istifadəyə verilib, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilib, Naxçıvan Muxtar

Vurğulanıb ki, son illərdə muxtar respublikada 20-dən çox musiqi məktəbi inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilib. Balaca istedadların üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mühüm rolu olub. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın fəaliyyətə başlaması isə ali təhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Naxçıvan Aşıqlar Birliyi yaradılıb, Azərbaycan xalqının qədim mədəni irsini yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətləri təbliğ olunmağa başlanıb.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparması, görülən tədbirlər nəticəsində “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri”nin YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Dövlət Filarmoniyasına qədim musiqi alətlərinin hədiyyə edilməsi doğma diyarımızda musiqi irsimizin yaşadılmasına, təbliğinə və inkişafına dövlət qayğısının bariz ifadəsidir.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın musiqi kollektivlərinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, səmərəli fəaliyyətlərinə görə musiqiçilərimiz Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülüblər.

Qeyd edilib ki, bu il sentyabr ayının 11-dən 18-dək Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın bütün bölgələrində Milli Musiqi Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib, muxtar respublikanın əksər musiqi kollektivlərinin ifalarında konsert proqramları, eləcə də “Yallı” festivalı təşkil edilib. Bu musiqi bayramı günlərində xalq musiqisindən və bəstəkar mahnılarından ibarət konsert proqramları sakinlər tərəfindən rəğbətlə qarşılanıb.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının Simfonik orkestri geniş konsert proqramı ilə çıxış edib.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

* * *



*Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Milli Musiqi Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildən etibarən hər il sentyabrın 18-nin ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunmasının əhəmiyyətindən, universitetdə musiqi ixtisasları üzrə ali təhsilli kadr hazırlığından, İncəsənət fakültəsinin fəaliyyətindən danışıb.

Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müəllimi Rumiyyə Məmmədova “Üzeyir Hacıbəyov və milli musiqi dəyərləri” adlı çıxışında qeyd edib ki, Şərqdə ilk opera janrının yaranması Üzeyir Hacıbəyovun adı ilə bağlıdır. Dahi bəstəkarın üç pərdədən ibarət “Ər və arvad” musiqili komediyası Azərbaycanda bu musiqi janrının ilk nümunəsidir.



Bildirilib ki, bütün ömrü boyu Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salıb, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərləri yazıb. Maraqlıdır ki, həm Azərbaycan Xalq Cümhuriyyətinin, həm də sovet Azərbaycanının himnlərinin musiqiləri dahi sənətkara məxsus olub. Üzeyir Hacıbəyov təkcə musiqi bəstələməyib, həm də xalq musiqisinin nəzəri əsaslarını gələcək nəslə çatdırmaq üçün müxtəlif vəsaitlər hazırlayıb. 1945-ci ildə nəşr edilmiş “Azərbaycan xalq musiqisinin əsasları” adlı elmi əsəri musiqişünas alim Üzeyir Hacıbəyovun mükəmməl fəaliyyətinin yadigarı kimi bu gün də musiqi dərsliyi olaraq istifadə edilir.

Tədbirin bədii hissəsində universitetin İncəsənət fakültəsinin tələbə və müəllimlərinin ifasında dahi bəstəkarın əsərləri səsləndirilib.

**Səadət ƏLİYEVA**

# Futbol hakimləri üçün seminara start verilib

*Naxçıvan Futbol Federasiyası Hakimlər Komitəsində yer alan hakim və hakim köməkçiləri üçün seminar keçirilib.*

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının birgə təşkil etdiyi seminar iki gün davam edəcək.

AFFA Hakimlər Komitəsinin üzvləri Anar Salmanov (təhsil üzrə) və Ceyhun Haşımovun rəhbərlik etdiyi seminarda 10 ədalət təmsilçisi iştirak edir.

Seminarda nəzəri və təcrübi biliklərin çatdırılması üçün müxtəlif üslublardan yararlanan hakimlərimizə “Oyun qaydaları”ndakı son dəyişikliklərlə bağlı məlumat verilib, onlar müxtəlif ölkələrin çempionat oyunlarından hazırlanmış videoları izləyib, müzakirələr aparıblar. Eyni zamanda oyunlarda rast gəlinmiş maraqlı



situasiyalar və hakim qərarları Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında müzakirə olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

*Gəncliyimiz, gələcəyimiz*

# Əzm, çox çalışmaq və yüksək hədəf



***Gələcəyimiz naminə həyata keçirilən təhsil islahatlarının nəticəsi, sözsüz ki, özünü ali təhsil müəssisələrinə qəbul imtahanlarında göstərir. Ümumtəhsil məktəblərinin məzunlarının həm buraxılış imtahanlarında, həm də ali və orta ixtisas təhsili müəssisələrinə qəbul zamanı yüksək nəticələr əldə etməsi uğurlu təhsil islahatlarının bəhrəsidir. Böyük-kiçikliyinə, yaxın-uzaqlığına fərq qoyulmadan bütün yaşayış məntəqələrində müasir təhsil infrastrukturunun qurulması qəbul imtahanlarında iştirak edən və qəbul olunanlar arasında rayon və kəndlərdən olan abituriyentlərin də sayını artırıb.***

2019-2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları ilə bağlı Dövlət İmtahan Mərkəzinin elmi-statistik təhlili də bunu təsdiq edir. Bu, Ordubad rayon ümumtəhsil məktəblərinin simasında da özünü büruzə verir. Müasir texnologiyalar əsasında qurulan mütərəqqi təhsil şəraiti rayonun təhsil uğurlarını artırır. Sözügedən elmi-statistik təhlildə o da bildirilir ki, son 6 ildə Ordubad rayonu abituriyentlərinin ali məktəblərə qəbulolma faizi yüksək olub.

Həmin bölgədə yüksək nəticələr göstərən məktəblər kifayət qədərdir. Belə məktəblərdən biri də müasir tədris imkanları ilə seçilən Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta internat məktəbidir. Son illər məktəbin məzunlarının əksəriyyəti onlara göstərilən etimadı doğruldub. Bu il məktəbin fəxrləri sırasında Murad Məmmədtağılı da var. O, qəbul imtahanlarında 665 bal toplayaraq arzusunda olduğu tələbəlik həyatına daha böyük sevinc və fəxarətlə başlayıb. Bu nəticəyə görə qəbul olunduğu ixtisas qrupunun birincisi olub.

2002-ci il aprelin 9-da Ordubad şəhərində dünyaya göz açan Murad həmin şəhərdəki tam orta internat məktəbində təhsil alıb. Bu il məktəbi “Qızıl” medalla bitirən məzunlar arasında onun da adı var. Məktəbdə təhsil aldığı dövrdə əldə etdiyi əla nəticələrlə gələcəyin uğur qazanacaq məzunlarından olacağına əminlik yaradan Murad respublika fənn olimpiadasının da qalibi adını qazanıb. Qəbul imtahanlarında yüksək bal toplamaqla ona göstərilən etimadı tamamilə doğruldub. Bu nəticə ilə Murad Azərbaycan Dövlət İqtisad Universitetində dövlət sifarişi əsasında ingilis dilində təhsil almaq hüququ qazanıb. Bilik Günü ərəfəsində aldığı daha bir şad xəbər isə Muradın silinməz xatirələrindən birinə çevrilib. Belə ki, Prezident cənab İlham Əliyevin sentyabrın 9-da 2019-2020-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncamına əsasən təltif olunan Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin məzunları arasında Murad Məmmədtağılı da var.

Hazırda Bakı şəhərində tələbə həyatına başlayan Muradla telefon vasitəsilə həmsöhbət oldum. O, uğura aparan yolu qısaca belə xarakterizə edir:

– Əzm, çox çalışmaq və yüksək hədəf seçimi. Hədəfini müəyyənləşdirib bu yolda əzm və çalışqanlıq göstərdikdə qarşında heç bir maneə dura bilməz. Təbii ki, bu uğurlarda müəllimlərin də zəhmətini unutmaq olmaz. Çünki insanlar həyatda bütün mərtəbələrə müəllim zəhməti sayəsində çatır, elmin, sənətin pillələrinə onların göstərdiyi yollarla qədəm qoyurlar. Müəllimlər bu yola nur saçan dəyərli peşə sahibləridir. Təhsil almağımda əməyi olanları, xüsusilə coğrafiya müəllimim Billurə Sadiqovanı hədəfimə çatmaqda mənə yaxından kömək etdiyi üçün daim minnətdarlıqla xatırlayacağam.

Murad qeyd etdi ki, 665 bal toplamağımda valideynlərimin də böyük rol oynayıb. Onlar həmişə mənə dəstək olub, hər zaman güvəniblər. Bu da məni daha da ruhlandırır, uğurdan-uğura aparırdı. Dərslərimi həmişə diqqətlə oxumuşam, müəllimlərimin verdiyi tapşırıqları vaxtlı-vaxtında və düzgün yerinə yetirməyə çalışmışam. Sevinirəm ki, bütün bunlar nəticə verdi, valideynlərimin etimadını doğrultdum. Atamla anam xəbər tutanda ki, muxtar respublika üzrə ən yüksək nəticə göstərənlər sırasında mən də varam və buna görə də dövlət başçımızın Sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşəm, keçirdikləri sevinc hisslərini sözlə ifadə etmək mümkün deyil. Onlara bu sevinci yaşatdığım üçün çox xoşbəxtəm. Çalışacağam ki, ali təhsilimə də mükəmməl yiyələnib xalqımıza layiq bir övlad olam, valideynlərimə daha çox sevinc bəxş edəm.

Muradın həyatında unudulmayacaq daha bir məqam isə ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplayan abituriyentlərlə keçirilən görüş olub. Avqustun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ali təhsil ocaqlarına qəbulda yüksək bal toplayan tələbələrlə ənənəvi görüşü onda da unudulmaz təəssürat yaradıb, təhsilini daha əzm və həvəslə davam etdirməyə böyük stimul verib.

Biz də, öz növbəmizdə, yenicə tələbəlik həyatına qədəm qoyan Muradı göstərdiyi yüksək nəticəyə görə təbrik edir, uğurlarının davamlı olmasını arzulayırıq.

✍ **Gülcamal TAHİROVA**

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 630